UOT: 341.64 DOI: 10.34826/NAA.2020.22.3.010

# BEYNƏLXALQ HÜQUQDA İQTİSADİ SANKSİYALARIN TƏSNİFATI

***Əliyev R.Z., **Məmmədov C.R.**
**AMEA, Hüquq və İnsan Haqları İnstitutu*
***Milli Aviasiya Akademiyası*

---

*Məqalədə beynəlxalq hüquqda iqtisadi sanksiyaların təsnifatı ilə bağlı məsələlər nəzərdən keçirilmişdir. Müəlliflər aparılmış təhlilləri ümumiləşdirərək göstərirlər ki, iqtisadi sanksiyalar bütövlükdə "iqtisadi əlaqələrin tam və ya qismən kəsilməsi" formulu çərçivəsində embarqo, boykot, iqtisadi blokada, maliyyə resurslarının dondurulması, kapital qoyuluşunun qadağan edilməsi və digər bu kimi formalarda reallaşdırıla bilər. Məqalədə bir çox hallarda məqsədyönlü sanksiyaların maliyyə sanksiyalarının sinonimi kimi işlədilməsi və onların eyniləşdirilməsinin düzgün olmadığı fikri irəli sürülür və əsaslandırılır, yekunda beynəlxalq iqtisadi sanksiyaların fərqli təsnifatı verilir.*

***Açar sözlər:*** *beynəlxalq hüquq, beynəlxalq münasibətlər, sanksiya, iqtisadi sanksiya, maliyyə sanksiyaları, ticarət sanksiyaları, embarqo, boykot, məqsədyönlü sanksiyalar.*

**Giriş**. Məlum olduğu kimi, beynəlxalq sanksiyalar beynəlxalq sülh və təhlükəsizliyi təsbit edən beynəlxalq hüquq normalarının pozulması hallarına qarşı kollektiv reaksiya mexanizminin mühüm elementlərindən biri kimi çıxış edir.

Sanksiyalar tətbiq etmək səlahiyyətinə malik olan universal beynəlxalq təşkilat kimi Birləşmiş Millətlər Təşkilatının (bundan sonra BMT) Nizamnaməsinə və beynəlxalq hüquq ədəbiyyatında aparılmış təhlillərə əsaslanaraq sanksiyaların üç növünü ayırmaq olar:

- diplomatik sanksiyalar;
- hərbi sanksiyalar;
- iqtisadi sanksiyalar.

Beynəlxalq münasibətlərdə məcburetmənin öz xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər, ilk növbədə, dövlətlərarası münasibətlərin və onların tənzimi metodlarının xarakteri ilə müəyyən olunur. Mərkəzləşdirilmiş məcburetmə aparatının olmadığı bir şəraitdə o, dövlətlər tərəfindən əks tədbirlərdən istifadə olunmaqla mərkəzsizləşdirilmiş (fərdi) qaydada və beynəlxalq təşkilatların institusional mexanizmi çərçivəsində beynəlxalq sanksiyalar vasitəsi ilə mərkəzləşdirilmiş (kollektiv) qaydada həyata keçirilir.

**Məqalənin məqsəd və vəzifələri.** Məqalənin yazılmasında **əsas məqsəd** beynəlxalq hüquqda iqtisadi sanksiyaların təsnifatı ilə bağlı məsələlərin nəzərdən keçirilməsidir. Aparılan təhlillərin ümumiləşdirmələri əsasında iqtisadi sanksiyaların bütövlükdə "iqtisadi əlaqələrin tam və ya qismən kəsilməsi" formulu çərçivəsində embarqo, boykot, iqtisadi blokada, maliyyə resurslarının dondurulması, kapital qoyuluşunun qadağan edilməsi və digər bu kimi sanksiya formalarının anlayışlarının aydınlaşdırılması məqalədə aparılan tədqiqat qarşısında qoyulan **vəzifələrdir**. Bir çox hallarda məqsədyönlü sanksiyaların maliyyə sanksiyalarının sinonimi kimi işlədilməsi və onların eyniləşdirilməsinin düzgün olmadığı fikrinin əsaslandırılması, beynəlxalq iqtisadi sanksiyaların fərqli təsnifatının verilməsi də əsas vəzifələrdən biridir.

**Əsas materialın ifadə olunması.** BMT Təhlükəsizlik Şurasının (bundan sonra TŞ) arsenalında olan məcburetmə tədbirlərinin xarakterini, yönümünü, tətbiqi, həyata keçirilməsi və bitməsi mexanizmini, tətbiqinin faktiki nəticələrini nəzərə almaqla, beynəlxalq iqtisadi sanksiyaları, hərbi sanksiyaları və diplomatik xarakterli sanksiyaları fərqləndirmək olar [1, s. 3].

Diplomatik sanksiyaların həyata keçirilməsi formaları kimi diplomatik əlaqələrin tam və ya qismən kəsilməsi, diplomatik heyətin say tərkibinin azaldılması və s. çıxış edir. Müəyyən şəxslərin və şəxslər qrupunun gediş-gəlişinə qadağa qoyulması, sanksiya obyekti olan ölkədən diplomatik nümayəndəlik əməkdaşlarının tam və ya qismən geri çağırılması, diplomatik vizaların ləğv edilməsi də diplomatik sanksiyaların formaları kimi çıxış edir.

Hərbi sanksiyalar daha ciddi güc vasitəsi kimi sülhün dəstəklənməsi və bərpası işində son

mərhələ kimi çıxış edir və yalnız BMT Nizamnaməsinin 40-cı, 41-ci maddələrində nəzərdə tutulmuş tədbirlər arzu olunan nəticələrə nail olunmasını təmin etmədiyi hallarda tətbiq edilir [2].

Hərbi sanksiyaların tətbiqində əsas məqsəd təcavüzkarı məğlubiyyətə uğratmaq, digər dövlətlərə qarşı təcavüzü dayandırmağa məcbur etmək və onu məsuliyyətə cəlb etməkdir.

D. Malounun fikrincə, dövlətlər və ya beynəlxalq təşkilatlar tərəfindən BMT TŞ-nın BMT Nizamnaməsinin VII bölməsinə uyğun olaraq qəbul etdiyi qətnamələrə əsasən tətbiq edilən sanksiyalar aşağıdakılar ola bilər:

1) kommersiya və ya ticarət xarakterli (tam embarqo; qismən embarqo, texniki xidmətin dayandırılması);

2) maliyyə xarakterli (hökumətin xarici aktivlərinin bloklanması, maliyyə bazarlarına çıxışın məhdudlaşdırılması, maliyyə yardımının dayandırılması);

3) hərəkət sanksiyaları (müəyyən şəxslərin və ya şəxslər qrupunun öz dövlətlərinin hüdudlarından kənara çıxmasına qadağa, istənilən (xüsusən də hava) əlaqə vasitəsi hərəkətinə qadağa);

4) diplomatik (sanksiya obyekti olan ölkələrin diplomatik nümayəndəliklərinin əməkdaşlarının tam və ya qismən geri çağırılması; diplomatik vizaların ləğv edilməsi);

5) idman və mədəni (ölkəni təmsil edən şəxsin və ya şəxslər qrupunun idman yarışlarında iştirakının qadağan edilməsi, sanksiya obyekti olan ölkəni təmsil edən şəxsin və ya şəxslər qrupunun iştirakı ilə mübadilə və səfərlər yolu ilə elmi, texniki və mədəni əməkdaşlığa xitam verilməsi);

6) prosessual sanksiyalar (səs hüququndan məhrum etmə; beynəlxalq təşkilatların seçkili orqanlarında təmsilçilik hüququndan məhrum etmə; beynəlxalq təşkilata qəbul etməmə və ya ondan kənarlaşdırma) [3, s. 167-172].

Fikrimizcə, sanksiyaları BMT TŞ-nın qətnamələrinin mövzusuna görə növlərə bölmək düzgün yanaşma deyildir. Çünki, bu halda sanksiya növləri olduqca çoxsaylı olacaq və qeyri-müəyyənlik yaranacaq. Sanksiyaların daha ümumi meyarlara görə (məsələn, siyasi, iqtisadi, hərbi, diplomatik) növlərə bölünməsi konkretlik və müəyyənlik baxımından daha məqsədəmüvafiqdir.

Klassik iqtisadi sanksiyalar kimi beynəlxalq maddi məsuliyyət formaları olan restitusiya, kompensasiya və substitusiya çıxış edir. Restitusiya hüquq pozuntusu törədilməmişdən qabaq mövcud olmuş vəziyyətin *(status quo ante- mövcud vəziyyəti göstərən*) bərpa edilməsidir. Məsələn, qeyri-qanuni ələ keçirilmiş əmlakın geri qaytarılması. Kompensasiya dövlətə və ya beynəlxalq hüququn digər subyektinə vurulmuş maddi (iqtisadi baxımdan qiymətləndirilə bilən) zərərin pul formasında ödənilməsidir. Müəlliflərdən R.F. Məmmədov və X.R. Məmmədovun fikrincə, restitusiya qanunsuz götürülmüş əmlakın naturada qaytarılması, substitusiya isə qanunsuz olaraq məhv edilmiş və ya yararsız hala düşmüş obyektlərin əvəzlənməsidir [4, s. 159].

Sanskiyalar iqtisadi əlaqələrin pozulması, tərəfdaşlığın ləğvi, həmin dövlətə yönəlmiş idxal və ixrac məhdudiyyəti formalarında təzahür edir [5].

M.S. Daoudi və M.S. Dajani kimi müəlliflər iqtisadi sanksiyaların növləri məsələsinə münasibət bildirərkən qeyd edirlər ki, "BMT Nizamnaməsinin 41-ci maddəsində iqtisadi sanksiyalar qismində iqtisadi əlaqələrin tam və ya qismən kəsilməsi göstərilmişdir. İqtisadi əlaqələrin tam və ya qismən kəsilməsinin həyata keçirilməsi onun ticarət və maliyyə sanksiyalarına bölünməsini nəzərdə tutur" [6, s. 5-8].

M.V. Keşnerin fikrincə isə BMT TŞ tərəfindən iqtisadi sanksiyaların tətbiqi təcrübəsinin təhlili göstərir ki, "iqtisadi əlaqələrin tam və ya qismən kəsilməsi" formulunun həyata keçirilməsi aşağıdakı geniş formalar sistemini nəzərdə tutur: embarqo, boykot, iqtisadi blokada, sanksiya obyektinin sahibliyində və ya birbaşa və ya dolayısı ilə nəzarətində olan əmlak hesabına əldə edilən vəsaitlər də daxil olmaqla maliyyə resurslarının dondurulması, sanksiya obyektinin iqtisadiyyatına kapital qoyuluşunun, habelə ona maliyyə, maddi, texniki və digər yardım göstərilməsinin qadağan edilməsi [7].

Qeyd etmək lazımdır ki, iqtisadi sanksiyaların təsiri onların həyata keçirilməsinin xarakterini şərtləndirir. Belə ki, onlar genişyönümlü (iqtisadi blokada) və ya məqsədyönümlü ola bilər. İkinci halda, iqtisadi sanksiyalar müəyyən qrup əmtəələrə məhdudiyyətlərin tətbiqini və

investisiya kütləsinə təsiri nəzərdə tutmaqla, iqtisadiyyatın müəyyən sahələrinə yönəlir. Bundan başqa, belə sanksiyaların xüsusiyyəti ondan ibarətdir ki, onlar beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsi məqsədilə tətbiq edilsə də, iqtisadi məcburetmə xarakteri daşıyırlar [8].

Q.İ. Kurdyakovaya görə ticarət müqavilələrinin dayandırılması və ya xitam edilməsi, daşımaların tam və ya qismən xitam edilməsi, daha əlverişli rejimdən imtina edilməsi, beynəlxalq yardım proqramlarının dəstəyindən imtina olunması, borc üzrə ödəmələrin qrafikinə yenidən baxılması da iqtisadi sanksiyaların növləri sırasına daxildir [9, s. 101].

İqtisadi sanksiyalar kollektiv və birtərəfli ola bilər. Kollektiv sanksiyalar hüquq pozuntusuna yol vermiş dövlətin məsuliyyətinin reallaşdırılması üsullarından biri kimi çıxış etdiyi halda, dövlətlər tərəfindən birtərəfli qaydada tətbiq edilən sanksiyalar hüquq pozuntusu olmadan siyasi motivlərə əsasən tətbiq edilə bilər.

Bəzən iqtisadi sanksiyalar ümumilikdə üç qrupa bölünür:

- ticarət sanksiyaları (ticarət embarqosu, bazarlara, maliyyə resurslarına və ya infrastrukturlara çıxışın qadağan edilməsi və ya məhdudlaşdırılması);
- texnoloji sanksiyalar (texnologiyalara və resurslara çıxışın qadağan edilməsi və ya məhdudlaşdırılması, texniki xidmətlərin dayandırılması və s.);
- maliyyə sanksiyaları (hesablara həbs qoyulması və dondurulması, xarici aktivlərin blok edilməsi, maliyyə bazarlarına çıxışın məhdudlaşdırılması və s.).

Hüquq pozan ölkə ilə ticarət aparan müəssisələrin və ya iş adamlarının adının "qara siyahıya" daxil edilməsi də iqtisadi sanksiyaların təzahür formalarından biri kimi çıxış edir.

İqtisadi sanksiyalar yalnız müəyyən dövlətə qarşı deyil, həm də üçüncü ölkələrin sanksiyaya məruz qalan ölkənin şirkətləri ilə ticarət əlaqələri olan şirkətlərinə qarşı da tətbiq edilə bilər. Sanksiya tətbiq edən dövlətin hökuməti üçüncü ölkələrə və onların şirkətlərinə sanksiyaya məruz qalan ölkə ilə iqtisadi münasibətlər saxlamağı birbaşa qadağan edə bilməz, lakin öz şirkətlərinin və dövlət orqanlarının belə şirkətlərlə əlaqələrini məhdudlaşdıra bilər. Bu imkandan, məsələn, ABŞ fəal istifadə edir. Burada ABŞ rəsmi orqanlarının mövqeyinə görə "hərbi-siyasi bloklara qoşulmayan" ölkələrlə əməkdaşlıq edən çoxsaylı dünya ölkələri şirkətlərinin qara siyahısı tərtib edilir. Amerika şirkətlərinə göstəriş verilir ki, müəyyən əmtəələri və texnologiyaları qara siyahıda olan şirkətlərə göndərməsinlər. Bu, ilk növbədə, hərbi əmtəələrə, habelə ikili təyinatı olan əmtəə və texnologiyalara aiddir [10].

Əksər hallarda iqtisadi sanksiyalar xarakterinə görə iki böyük qrupa ayrılır: ticarət sanksiyaları və maliyyə sanksiyaları.

Ticarət sanksiyalarının özünün də bir çox növləri vardır. Dost olmayan dövlətlərə qarşı ticarət sanksiyalarının tətbiqi strategiyası XIX əsrin sonlarında Britaniya imperiyası tərəfindən işlənib hazırlanmışdır. Ticarət sanksiyaları bir dövlət tərəfindən digər dövlətlə ticarət əlaqələrinin qadağan edilməsini və ya məhdudlaşdırılmasını nəzərdə tutur. Ticarət sanksiyalarının daha geniş yayılmış forması kimi embarqo çıxış edir.

"Embarqo" sözü ispan sözü olub, mənası "qadağa" deməkdir. İspanca "embargar" feli isə "müsadirə etmək, həbs qoymaq" mənasını ifadə edir.

Azərbaycan dilinin izahlı lüğətində "embarqo" sözü "bir ölkəyə mal gətirilməsinin və ya oradan mal çıxarılmasının qadağan edilməsi, bir dövlətin cəza tədbirləri olaraq başqa dövlətlərə məxsus gəmilərinin və yüklərinin öz limanına girməsini, yaxud oradan çıxmasını qadağan etməsi" kimi izah edilir [12, s. 24].

"Embarqo" anlayışı ilk dəfə olaraq XVIII əsrdə xarici dövlətlərə məxsus saxlanılmış gəmilərə və silahlara münasibətdə tətbiq edilmişdir.

Embarqo həm hərbi, həm də sülh dövründə tətbiq edilə, ticarət-iqtisadi fəaliyyətin bütün sahələrini və ya yalnız müəyyən kateqoriya əmtəələri əhatə edə bilər.

Ticarət-iqtisadi sanksiyaların bir növü kimi embarqo əmtəələrin hüquq pozan dövlətin ərazisinə ixracının xitam edilməsini və ya məhdudlaşdırılmasını nəzərdə tutur. Tam embarqo və qismən embarqo fərqləndirilir. Tam embarqo əmtəələrin ixracının tam şəkildə xitam edilməsini, qismən embarqo isə müəyyən əmtəələrin göndərilməsinin məhdudlaşdırılmasını nəzərdə tutur.

Məlum olduğu kimi, beynəlxalq əmək bölgüsü şəraitində ixraca qadağa tətbiq edilməsi

valyuta mədaxilinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır. Nəticədə xaricdən zəruri malları almaq imkanları da xeyli dərəcədə məhdudlaşır. Lakin sanksiyaya məruz qalan ölkədaxili istehsala və istehlaka köklənmişdirsə və ya iqtisadiyyatının inkişafdan geri qalmasına görə dünya bazarına özü üçün əhəmiyyətli həcmdə əmtəə çıxara bilmirsə, bu halda ixracın məhdudlaşdırılması kifayət qədər təsirli olmaya bilər [10].

İspaniya 1939-1959-cu illərdə diktator Fransisko Frankonun idarəetməsi dövründə digər ölkələrlə xarici ticarətdən tamamilə imtina etmişdi. Tam ticarət embarqosu digər dövlətlərə qarşı da tətbiq edilmişdi. Buna misal kimi Napoleon Bonapart tərəfindən rəqib dövlətlərlə ticarətin total şəkildə qadağan edilməsi çərçivəsində Böyük Britaniyanın total blokadasını (1806-1814-cü illər) göstərmək olar. Ötən əsrdə Şimali Koreyanın 1950-1953-cü illər müharibəsində iştirakına cavab olaraq Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə Koreya Xalq Demokratik Respublikası (bundan sonra KXDR) ilə ticarət əlaqələrinin kəsilməsi də belə nümunələrdən biri kimi çıxış edir. 80-ci illərin sonuna doğru Koreya embarqosunun şərtləri bir qədər yumşalsa da, yalnız çox illər keçdikdən sonra (2008) ticarət qadağaları tam şəkildə aradan qaldırılmışdı [12].

TŞ-nın İraqa dair 1990-cı il 661 saylı qətnaməsi ilə tam ticarət embarqosu tətbiq edilmişdi. Lakin müstəsna olaraq, tibbi məqsədlər üçün nəzərdə tutulan əmtəələrin, qida məhsullarının və humanitar tələblərin təmin edilməsi üçün zəruri olan digər predmetlərin göndərilməsi istisna təşkil edirdi. Həmin məhsulların siyahısı Təhlükəsizlik Şurasının göstərilən qətnamə əsasında təsis edilmiş Komitəsi tərəfindən müəyyən edilməli idi [13].

Tam embarqoya misal olaraq, ABŞ-ın 1960-cı ildə Kubaya tətbiq etdiyi embarqonu da göstərmək olar.

Tam və qismən embarqo tətbiq edilən qadağaların həcmi meyarına görə fərqləndirilən növlərdir. Embarqonun başqa meyar üzrə də təsnifatı aparılır. Belə ki, dövlətlərin beynəlxalq ticarət münasibətlərinin öyrənilməsi əsasında qadağaların tətbiq edilməsi üçün göstərilən arqumentlərə görə ticarət embarqosunun aşağıdakı növlərini qeyd etmək olar:

- *Siyasi embarqo.* Siyasi embarqo digər ölkəyə ideoloji təzyiq həyata keçirilməsi üçün müəyyən edilir. Məsələn, 2003-cü ildə ABŞ-ın Kubaya qarşı ticarət məhdudiyyətlərinin sərtləşdirilməsi amerikalı rəhbərlərin sözlərinə görə Kubada yeni demokratik və azad dövlətin qurulmasını sürətləndirmək məqsədi güdürdü. Siyasi xarakterli embarqo həmçinin hakim rejimlə və ya dövlətin konkret hərəkətləri ilə ziddiyyətin nümayiş etdirilməsi üçün tətbiq olunur. Məsələn, KXDR-da nüvə sınaqları ilə əlaqədar məhsulların bu ölkəyə ixracına yapon embarqosu (2009-2010-cu illər); Avropa İttifaqının neft və silah satışı ilə bağlı Suriyaya tətbiq etdiyi bir sıra embarqolar (2011).
- *İqtisadi embarqo.* Məsələn, Qazaxıstanın 2015-ci ildə rus benzininə və dizelinə onların aşağı dəyərinə görə tətbiq etdiyi embarqo, hansı ki, bu Qazaxıstan neft emalı komplekslərinin sabit gəliri üçün təhlükə yaratmışdı.
- *Dövlət təhlükəsizliyinin qorunması üçün embarqo* (Məsələn, 2014-cü ildə RF-ın ərzaq məhsullarına tətbiq etdiyi ticarət embarqosu).
- *Ölkələrin ərazi sərhədləri ilə bağlı mübahisəli vəziyyətlərin qarşısının alınması və həlli üçün tətbiq edilən embarqo* (məsələn, 1994-1995-ci illərdə Yunanıstanın Makedoniyaya tətbiq etdiyi ticarət embarqosu).
- *Hər hansı ölkənin vətəndaşlarının sağlamlığına qayğı göstərilməsi məqsədi daşıyan embarqo.*
- *Ekoloji embarqo.* Bu növ embarqo ekoloji fəaliyyətə qarşı dövlətin narazılığını ifadə etmək üçün tətbiq edilir. Məsələn, 1998-ci ildə Amerika Birləşmiş Ştatları Norveçdən suiti dərisindən hazırlanmış məhsulların gətirilməsinə qadağa tətbiq etdi və bunu vətəndaşların ətraf mühitə qayğısı və əhalinin bu heyvanların ovuna qarşı kütləvi çıxışları ilə izah etdi [12].

Embarqodan danışarkən 1950-ci illərdən başlayaraq İrana qarşı tətbiq edilən uzunmüddətli iqtisadi sanksiyalar rejimini də qeyd etmək lazımdır. Məlum olduğu kimi, 1979-cu ildə bu ölkədə İslam inqilabı baş verdi. Sanksiyalar amerikan vətəndaşlarına və şirkətlərinə İranda biznes fəaliyyəti ilə məşğul olmağı tam şəkildə qadağan edirdi. 1980-ci ildə İraq ordusu İrana daxil olduqdan sonra ABŞ hökuməti bu ölkəyə qarşı sanksiyaları gücləndirdi. Hərbi, atom, raket

məhsullarının İrana ixracı, habelə neft, neft-kimya və qaz sənayesinə birbaşa xarici investisiyaların cəlb edilməsi, maliyyə sövdələşmələrinin aparılması, dəniz donanması ilə əməkdaşlıq həyata keçirilməsi qadağan edilirdi. Ticarət münasibətləri 2016-cı ildən etibarən İran nüvə proqramında güzəştə getdikdən sonra nizama düşməyə başlamışdır.

Ticarət-iqtisadi sanksiyaların növü kimi iqtisadi boykot daha radikal xarakter daşıyır. Daha genişmiqyaslı və uzunmüddətli iqtisadi boykot Fələstində, sonra isə İsraildə yəhudi icmasına qarşı tətbiq edilən Ərəb boykotu hesab olunur. Belə nümunələr dünya təcrübəsində çox deyildir. Ona görə ki, boykot ticarət məhdudiyyətləri və ya qadağaları vasitəsi ilə ölkənin digər dövlətlər tərəfindən tam iqtisadi təcrid vəziyyətinə salınmasını özündə əks etdirir və ölkələr arasında diplomatik əlaqələrin pozulmasına gətirib çıxarır, çox zaman isə silahlı hərəkətlərlə müşayiət olunur [13.5, s. 495; 14, s. 159-171].

Ticarət sanksiyalarının mənfi humanitar nəticələri "məqsədyönlü" ("ağıllı") və "maliyyə" sanksiyalarının yaranmasını şərtləndirdi. Məqsədyönlü" ("ağıllı") (latınca "smart sanction") sanksiyalar nisbətən yeni termin olub Küveytə müdaxilə etdikdən sonra 1990 və 1991-ci illərdə İraqa tətbiq edilən sanksiyalarla əlaqədar olaraq dövriyyəyə daxil olmuşdur. 1991-ci ildə məlum oldu ki, İraqa qarşı sanksiyalar başlanğıcda beynəlxalq mübahisələrin silahsız, dinc yolla həllinə yönəlmişdir, lakin əslində Fars körfəzinin bombalanması və burada aparılan hərbi əməliyyatlarla birlikdə həmin sanksiyalar İraq iqtisadiyyatı və milli infrastrukturu üçün dağıdıcı xarakter kəsb etdi. İraqa qarşı sanksiyaların tətbiqi nəticəsində ölkənin mülki əhalisi davamlı olaraq aşağı keyfiyyətli qida qəbulundan ciddi əziyyət çəkməli oldu. Mənfi nəticələrə həmçinin dərman vasitələrinin kəskin çatışmazlığını da aid etmək lazımdır. Bütün bunlar xəstəliklərin, o cümlədən yoluxucu xəstəliklərin artmasına səbəb oldu. İnfeksiyaların yayılması üçün əlavə faktor, içməli su çatışmazlığı idi [14, s. 791-795].

BMT iqtisadi sanksiyaların tətbiqinin mənfi və təhlükəli nəticələrini nəzərə alaraq, daha təhlükəsiz və səmərəli olan məqsədyönlü sanksiyaların tərtib edilməsini tövsiyə edir. Onlar qismən ticarət embarqolarını, maliyyə tədbirlərini, sanksiya obyekti olan dövlətlərin liderlərinin səfərlərinə məhdudiyyətləri və konkret əmtəələrə ticarət məhdudiyyətlərini nəzərdə tutur. Nümunə kimi Krımın Rusiyaya birləşdirilməsi və Ukraynanın şərqindəki münaqişə ilə bağlı tətbiq edilən sanksiyaları göstərmək olar [15]. Bu sanksiyalar Rusiyaya və bir sıra rusiyalı və ukraynalı şəxslərə və təşkilatlara münasibətdə məhdudlaşdırıcı xarakterli siyasi və iqtisadi tədbirlər kimi formulə edilmişdi. Təşəbbüskar ölkə ABŞ olsa da sanksiyalara Avropa Birliyi ölkələri də qoşulmuşdu. Onları Böyük yeddilik dövlətləri və ABŞ və Avropa Birliyinin tərəfdaşları olan bir sıra digər ölkələr dəstəkləmişdi [14, s. 159-171].

İ.İ. Sidelnikova qeyd edir ki, iqtisadi sanksiyaların alətlər dəsti xarici iqtisadi əlaqələrin tipləri qədər fərqlidir. Bir qayda olaraq, onlar xarici ticarət və maliyyə sanksiyalarına bölünürlər. Xarici ticarətin məhdudlaşdırılması sahəsində cəzalandırma məqsədi malların əldə edən dövlətə idxal dəyərini istehlakçılar üçün müvafiq nəticələr doğura biləcək şəkildə artırmaqdır. Maliyyə sanksiyalarına iqtisadi axınların, kreditləşdirmənin, iqtisadi dəstəyin, yatırımların dayandırılmasına yönəlmiş müxtəlif tədbirlər aid edilir. Bu tədbirlər iqtisadi aktivlərin çatışmazlığına, kreditlər üzrə faiz dərəcələrinin artmasına və nəticədə maliyyə defisitinə səbəb olur. Ticarət sanksiyalarından istifadə olunmadan da maliyyə sanksiyaları ticarət axınlarının azalmasına gətirib çıxara bilər. Belə ki, onlar ticarət kreditlərinin mümkünlük ehtimalını azaldır və tədricən ödəmələri dayandırır [16, s. 708-711].

Maliyyə sanksiyaları ölkələr və ya transmilli təşkilatlar tərəfindən müəyyən bir ölkənin, fiziki və ya hüquqi şəxslərin maliyyə fəaliyyətlərini məhdudlaşdıran tədbirlərdir.

Maliyyə sanksiyalarına aşağıdakılar daxildir:

- sanksiyalı ölkəyə pul vəsaitlərinin köçürülməsi və bütün aktivlərin dondurulması;
- sanksiyalar siyahısına daxil olan fiziki və hüquqi şəxslər, təşkilatlar və ya hökumətlərə sığorta və maliyyə xidmətləri də daxil olmaqla, maliyyə xidmətləri göstərilməsinin qadağan edilməsi;
- sanksiyalar siyahısına daxil olan şəxslərin sahib olduğu və ya nəzarət etdiyi hüquqi şəxslərə maliyyə təminatının qadağan edilməsi [17].

Maliyyə sanksiyaları OFAC (ABŞ Qanununa əsasən maliyyə sanksiyalarını idarə edən və həyata keçirən ABŞ Xəzinədarlıq Departamentinin Xarici aktivlərə Nəzarət Ofisidir), BMT və Aİ (Avropa İttifaqı) kimi bir sıra beynəlxalq təşkilatlar tərəfindən tətbiq edilir. Sözügedən təşkilatlar tərəfindən verilən sanksiya siyahılarında fərdlər, qurumlar və dövlətlər yer alır. Sanksiya siyahılarında yer alan tərəflərə birbaşa və ya dolayı olaraq maliyyə dəstəyi verilməməli və həmin şəxslərlə və ya dövlətlərlə bağlı əməliyyatlar icra edilməməlidir.

Sanksiya proqramları aşağıdakı kateqoriyalardan ibarətdir:

- Tam sanksiya proqramları - ölkə əsaslı sanksiya proqramlarıdır və bu proqramı əhatə edən ölkələr ilə bağlı əməliyyatlara vasitəçilik edilməməlidir.
- Qismən olan sanksiya proqramları - xüsusi şəxsləri və təşkilatları hədəfləyən proqramlardır. Bu proqram çərçivəsində siyahıya əlavə olunmuş şəxslər və təşkilatlarla əməliyyatlar aparmaq qadağandır. Əməliyyatlar və müştərilərin rekvizitləri siyahılarla avtomatik olaraq yoxlanmalıdır.
- Sektoral sanksiya proqramları - Rusiya sanksiyaları çərçivəsində müəyyən təşkilatlarla və müəyyən sektorlarla əməliyyatlardır [17].

Maliyyə sanksiyaları hər bir halda məqsədyönlü olur və bir sıra üstünlüklərə malikdirlər. Ticarət sanksiyalarından sanksiyaya məruz qalan ölkənin demək olar bütün əhalisi və ya geniş şəxslər dairəsi iqtisadi zərər çəkdiyi halda, maliyyə sanksiyaları məhdud subyekt və predmet dairəsinə, yəni konkret şəxslərə və onların əmlakına yönəlir. Maliyyə sanksiyalarının daha geniş yayılmış formalarına xarici aktivlərin bloklanması və göstərilən maliyyə yardımının kəsilməsi aid edilir [14, s. 159-171]. Bəzi müəlliflər kreditlərin və ya qrantların verilməsinin ləğvini və ya gecikdirilməsini də maliyyə sanksiyaları kimi xarakterizə edirlər [18, s. 146].

Fikrimizcə, maliyyə sanksiyalarının hər bir halda məqsədyönlü olması fikri ilə razılaşmaq olmaz. Belə ki, bəzi hallarda maliyyə sanksiyalarının dolayı nəticələri ticarət sanksiyaları qədər ağır ola bilər.

İqtisadi sanksiyaların sərt növləri daha ağır humanitar böhranlara səbəb olur. Problemin aktuallığı BMT Baş Katibinin çıxışlarında da dəfələrlə səsləndirilmişdir. Məsələn, onun “XXI əsrdə BMT-nin rolu” adlı məruzəsində deyilir: “...Avtoritar rejimlərə qarşı sərt və genişmiqyaslı sanksiyalar tətbiq edildikdə problem yaranır. Bu halda davranışları sanksiyaların tətbiqinə səbəb olan siyasi elita deyil, sadə insanlar əziyyət çəkir. Bundan başqa, təəssüflər olsun ki, çox zaman hakimiyyətdə olanlar bu sanksiyalardan fayda əldə edirlər, çünki qara bazarı və əldə edilən gəlirləri kontrol etmək imkanı əldə edirlər və sanksiyalar daxili siyasi müxalifəti ləğv etmək üçün onlara bəhanə verir” [19].

**Nəticə və təkliflər**

Beləliklə, iqtisadi sanksiyalar bütövlükdə “iqtisadi əlaqələrin tam və ya qismən kəsilməsi” formulu çərçivəsində embarqo, boykot, iqtisadi blokada, maliyyə resurslarının dondurulması, kapital qoyuluşunun qadağan edilməsi və digər bu kimi formalarda reallaşdırıla bilər.

Bəzən sanksiyalar BMT TŞ-nin qətnamələrinin mövzusuna görə növlərə bölünür. Fikrimizcə, bu düzgün yanaşma deyildir. Çünki, bu halda sanksiya növləri olduqca çoxsaylı olacaq və qeyri-müəyyənlik yaranacaq. Sanksiyaların daha ümumi meyarlara görə (məsələn, siyasi, iqtisadi, hərbi, diplomatik) növlərə bölünməsi konkretlik və müəyyənlik baxımından daha məqsədəmüvafiqdir.

Bir çox hallarda məqsədyönlü sanksiyalar maliyyə sanksiyalarının sinonimi kimi işlədilir və bəzən onlar eyniləşdirilir. Fikrimizcə, bu düzgün deyildir. Sanksiyaları ticarət sanksiyalarına və maliyyə sanksiyalarına bölmək olar, amma ticarət sanksiyalarına və məqsədyönlü sanksiyalara bölmək olmaz. Doğrudur, maliyyə sanksiyaları əksər halda (amma hər bir halda deyil) məqsədyönlü sanksiyalardır. Lakin, məqsədyönlü sanksiyaların əhatə dairəsi daha geniş olmaqla yalnız maliyyə sanksiyaları ilə məhdudlaşmır. Buraya ticarət sanksiyalarının yumşaq formada tətbiq edilən növləri, məsələn, qismən embarqo, konkret əmtəələrə ticarət məhdudiyyətlərininin tətbiqi və s. də daxildir. Dolayı nəticələri ilə birlikdə götürsək bəzi maliyyə sanksiyaları məqsədyönlü olmaya da bilər. Nəhayət, sanksiyaların ticarət və maliyyə sanksiyalarına bölünməsində əsas meyar onların xarakteri ilə bağlı olduğu halda, məqsədyönlü və məqsədyönlü olmayan sanksiyalara bölgüdə əsas meyar kimi mənfi humanitar nəticələr nümayiş etdirilir.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək, beynəlxalq iqtisadi sanksiyaların təsnifatını aşağıdakı kimi aparmaq olar:

***1.*** *Xarakterinə görə:*

a) ticarət sanksiyaları;

b) maliyyə sanksiyaları.

***2.*** *Tətbiq edilməsi qaydasına və ya subyektlərin dairəsinə görə:*

a) kollektiv iqtisadi sanksiyalar;

b) birtərəfli iqtisadi sanksiyalar.

***3.*** *Əhatə dairəsinə görə:*

a) geniş iqtisadi sanksiyalar;

b) məhdud iqtisadi sanksiyalar.

***4.*** *Mənfi humanitar nəticələrinə görə:*

a) məqsədyönlü sanksiyalar;

b) məqsədyönlü olmayan sanksiyalar.

**ƏDƏBİYYAT**

1. Негматова Т.М. Санкции как внешнеполитический инструмент в деятельности международных организаций и государств: историко-теоретический аспект: Автореф. дисс. ... канд. ист. наук. Душанбе, 2018, 26 с.
2. Gardam J. Necessity, Proportionality and the Use of Force by States. Cambridge: Cambridge University Press, 2005, 259 p.
3. Malone D. The UN Security Council: From the Cold War to the $21^{st}$ Century. Lynne Rienner Publishers, 2004, 746 p.
4. Məmmədov R.F., Məmmədov X.R. Müasir beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qanunsuz və hüquqazidd fəaliyyəti. Bakı: MM-S, 2017, 260 s.
5. İqtisadi sanksiyalar. https://az.wikipedia.org/wiki/%C4%B0qtisadi_ sanksiyalar
6. Daoudi M.S., Dajani M.S. Economic Sanctions: Ideals and Experience. Boston: Routledge & Kegan Paul, 1983, 263 p.
7. Кешнер М.В. Экономические санкции в современном международном праве: монография. М.: Проспект, 2015, 184 с.
8. Зейнешев Т.Ж. Виды санкций в международном праве // Евразийский Научный Журнал, 2017, № 4. http://journalpro.ru/pdf-article/?id=8047
9. Курдюков Г.И. Международные экономические санкции и права человека (применение в практике Совета Безопасности ООН) // РЕМП. Спец. выпуск. СПб., 2000, с. 99-102.
10. Виды экономических санкций. https://www.banki.ru/wikibank/vidyiekonomicheskih_sanktsiy/
11. Azərbaycan dilinin izahlı lüğəti. Dörd clddə. II cild. Bakı: Şərq-Qərb, 2006, 792 s.
12. Торговое эмбарго. http://www.iccwbo.ru/blog/2016/torgovoe-embargo-vidy-primery-i-rekomendatsii/
13. Резолюция Совета Безопасности ООН S/RES/661 (1990), 6 августа 1990. http://www.un.org/ru/documents/ods.asp?m=S/RES/661%C2%A0(1990)
14. Грачева А.М. Понятие и виды экономических санкций в международном праве // Труды Института государства и права РАН, 2017, № 1, с. 159-171
15. Резолюция Генеральной Ассамблеи ООН 68/26. http://www.un. org/ru/documents/ ods.asp?m=A/RES/68/262
16. Malone D. The UN Security Council: From the Cold War to the $21^{st}$ Century. Lynne Rienner Publishers, 2004, 746 p.
17. Maliyyə sanksiyaları nədir?. https://bbn.az/maliyy%C9%99-sanksiyalari-n%C9%99dir/
18. Hufbauer G.C., Schott J.J., Elliott K.A., Oegg B. Economic Sanctions Reconsidered: History and Current Policy. 3rd ed. Washington: Peterson Institute for International Economics, 2007, 233 p.
19. Мы, народы: роль Организации Объединенных Наций в XXI веке. Доклад Генерального секретаря. http://unpan1.un.org/intradoc/groups/public/ documents/un/unpan004566.pdf
20. Сидельникова И.И. Санкции: теоретические и исторические аспекты // Молодой ученый, 2016, № 9, с. 708-711
21. Daoudi M.S., Dajani M.S. Economic Sanctions: Ideals and Experience. Boston: Routledge & Kegan

Paul, 1983, 263 p.

**REFERENCES**

1. Negmatova T.M. Sankcii kak vneshnepoliticeskiy instrument v deyatelnosti mejdunarodnix oranizaciy i qosudarstv: istoriko-teoreticeskiy aspekt: Avtoref.diss.. kand. ist. nauk. Dushanbe, 2018, s.26.
2. Gardam J. Necessity, Proportionality and the Use of Force by States. Cambridge: Cambridge University Press, 2005, 259 p.
3. Malone D. The UN Security Council: From the Cold War to the 21st Century. Lynne Rienner Publishers, 2004, 746 p.
4. Mammadov R.F., Mammadov X.R. Muasir beynelxalq huquq noqteyi-nezerinden Azerbaycanın işhqal olunmush erazilerinde Ermenistanın qanunsuz və huquqa zidd fealiyyeti. Bakı: MM-S, 2017, 260 s.
5. İqtisadi sanksiyalar. https://az.wikipedia.org/wiki/%C4%B0 iqtisadi_ sanksiyalar
6. Daoudi M.S., Dajani M.S. Economic Sanctions: Ideals and Experience. Boston: Routledge & Kegan Paul, 1983, 263 p.
7. Keshner M.V. Economiceskie sankcii v s ovremennom mejdunarodnom prave: monoqrafiya. M.: Prospekt, 2015, s.184
8. Zeyneshev T.J. Vidi sankciy v mejdunarodnom prave // Evraziyskiy Naucniy Jurnal, 2017, № 4. http://journalpro.ru/pdf-article/?id=8047
9. Kurdyukov G.I. International economic sanctions and human rights (application in the practice of the UN Security Council) // REMP. Specialist. release. SPb., 2000, p. 99-102
10. Types of economic sanctions. https://www.banki.ru/wikibank/vidyi_ ekonomicheskih_sanktsiy
11. Azerbaycan dilinin izahli luğeti. Dord cildde. II cild. Bakı: Şerq-Qerb, 2006, 792 s.
12. Trade embargo. http://www.iccwbo.ru/blog/2016/torgovoe-embargo-vidy-primery-i-rekomendatsii/
13. UN Security Council Resolution S / RES / 661 (1990), August 6, 1990. http://www.un.org/en/documents/ods.asp?m=S/RES/661%C2%A0(1990)
14. Gracheva A.M. The concept and types of economic sanctions in international law // Transactions of the Institute of State and Law of the Russian Academy of Sciences, 2017, No. 1, p. 159-171
15. Resolution of the UN General Assembly 68/26. http: //www.un. org / ru / documents / ods.asp? m = A / RES / 68/262
16. Malone D. The UN Security Council: From the Cold War to the 21st Century. Lynne Rienner Publishers, 2004, 746 p.
17. Maliyye sanksiyaları nedir ?. https://bbn.az/maliyy%C9%99-sanksiyalari-n%C9%99dir/
18. Hufbauer G.C., Schott J.J., Elliott K.A., Oegg B. Economic Sanctions Reconsidered: History and Current Policy. 3rd ed. Washington: Peterson Institute for International Economics, 2007, 233 p.
19. We Peoples: The Role of the United Nations in the 21st Century. Report of the Secretary-General. http://unpan1.un.org/intradoc/groups/public/ documents / un / unpan004566.pdf
20. Sidelnikova I.I. Sanctions: theoretical and historical aspects // Young scientist, 2016, No. 9, p. 708-711
21. Daoudi M.S., Dajani M.S. Economic Sanctions: Ideals and Experience. Boston: Routledge & Kegan Paul, 1983, 263 p.

## *ОПРЕДЕЛЕНИЕ ЭКОНОМИЧЕСКИХ САНКЦИЙ В МЕЖДУНАРОДНОМ ПРАВЕ*

**** Алиев Р.З., ** Мамедов Д.Р.***
**Национальная Академия Наук Азербайджана, Институт права и прав человека*
***Национальная Академия Авиации*

*В данной статье рассматриваются вопросы, связанные с классификацией экономических санкций в международном праве. Резюмируя результаты исследования, автор показывает, что экономические санкции могут быть введены в форме эмбарго, бойкотов, экономической блокады, замороженных финансовых ресурсов, запрещения капиталовложения и других подобных мер в целом, полностью или частично. Автор также утверждает, что во многих случаях использование преднамеренных санкций в качестве синонима финансовых санкций и их идентификации является неточным, а также дает отличительную классификацию международных экономических санкций.*

***Ключевые слова:*** *международное право, международные отношения, санкции, экономические санкции, финансовые санкции, торговые санкции, эмбарго, бойкоты, целенаправленные санкции.*

***DEFINITION OF ECONOMIC SANCTIONS IN INTERNATIONAL LAW***

**** Aliev R.Z., ** Mammadov J.R.***
**Azerbaijan National Academy of Sciences, Institute of Law and Human Rights*
***National Aviation Academy*

*This article discusses issues related to the classification of economic sanctions in international law. Summarizing the results of the study, the author shows that economic sanctions can be imposed in the form of embargoes, boycotts, economic blockades, frozen financial resources, the prohibition of investment and other similar measures in whole or in part. The author also claims that in many cases the use of intentional sanctions as a synonym for financial sanctions and their identification is inaccurate and also provides a distinctive classification of international economic sanctions.*

***Key words:*** *international law, international relations, sanctions, economic sanctions, financial sanctions, trade sanctions, embargoes, boycotts, targeted sanctions.*

***Rəyçi: dos. S.Y. Qasımov***

**Müəlliflər haqqında məlumat:**

| Soyadı, adı, atasının adı | İş yeri | Vəzifəsi, eımi dərəcəsi, elmi adı | Əlaqə |
|---|---|---|---|
| Əliyev Rauf Zeynal oğlu | AMEA, Hüquq və İnsan Haqları İnstitutu | Dissertant | matlabm@yandex.ru (+994) 50 613 29 18 |
| Məmmədov Cahangir Rza oğlu | Milli Aviasiya Akademiyası | Dil və ictimai fənlər kafedrasının professoru, fəlsəfə e.d. | (+994) 50 684-27-04 |